UOT 902

İRADƏ AVŞAROVA
tarix üzrə fəlsəfə doktoru,
Bakı Dövlət Universitetinin dosenti
iradaavshar@icloud.com

AZƏRBAYCAN ƏRAZİSİNDƏ TUNC DÖVRÜ İBADƏTGAHLARI VƏ DİNİ-DÜNYƏVİ GÖRÜŞLƏRLƏ BAĞLI MADDİ MƏDƏNİYYƏT ABİDƏLƏRİ

DOI: https://doi.org/10.36719/2708-065X/105/212-217

Tədqiqatlar göstərir ki, Azərbaycan ərazisində çox böyük elmi əhəmiyyət kəsb edən abidələrin bir qrupunu qədim insanların mənəvi aləmi, dini-ideoloji dünyagörüşləri ilə bağlı olan ibadət evləri və məbədlər təşkil etmişdir. Belə ki, ərazidə "Od"a inam eneolit dövründən başlayaraq daha geniş vüsət almışdır. Aparılan arxeoloji tədqiqatlar dövrün ilk əkinçi-maldar tayfalarinin dini-ideoloji dünyagörüşlərinin "Günəş", "Ay" və "Od" inancı ilə bağlı olduğunu sübut edir. Sonrakı tarixi mərhələ də isə Azərbaycanın bir çox ərazilərində yaşayan tayfaların dini inanclarında Günəş və Ay "tanrı" obrazında yer alır. "Od"a və "Günəş"ə tapınma daha sonra (e.ə. I minillikdə) "Atəşpərəstlik" dini altında özünü göstərir.

Açar sözlər: məbəd, günəş, ay, tayfa, din, ideologiya.

Giriş. Məlum olduğu kimi "Od" inamı ilə bağlı təsəvvürlər e.ə. I minillikdə peyğəmbərlik almış Zərdüştlə bağlanılır [1, s.8, 12, 17]. Azərbaycan ərazilərində "Od" inamı ilə bağlı olan məbədgahlara hələ e.ə. V minillikdə təsadüf olunması faktını nəzərə alsaq, ərazidə həmin təsəvvürlərin altıyeddi min il əvvəl olduğuna ciddi yanaşmalı olmalıyıq [2, s.135].

Bildiyimiz kimi, qədim dövr insanlarının dünyagörüşlərində "Od" yer üzərində "Günəş" simvolu-atributu sayılmışdır. Elə həmin səbəbdən də ərazidə qədim dövrlərə aid ev kultu ilə bağlı ibadət yerlərinə və "Od" inamı ilə bağlı ibadətgahlara çox rast gəlinir.

Mövcud cəmiyyətlərdə yaşamış tayfaların "Günəş", "Ay", və "Od"a tapınmalarını: I Kültəpə, Əliköməktəpə, İlanlıtəpə, Qaraköpəktəpə, I Kamiltəpə, I Maxta, Sərkərtəpə, Qıpçaq, Babadərviş, Qudabertka, Sarıtəpə və s. yaşayış yerlərində tədqiq olunmuş qədim ibadətgahların qalıqları da bir daha sübut edir [3 , s. 40, 53; 4, s.57-63; 5, s.164-165; 6, s.23; 7, s.335-337; 8, s.35; 9, s.34; 10, s.93-94; 11, s.9-26; 12, s.12-13].

V.B.Baxşəliyev yazır ki, I Kültəpənin eneolit dövrünə aid VIII tikinti qatında aşkarlanan tikinti qalıqları, ritual məqsədilə istifadə olunan ocaqlar ev kultunun varlığını, yaşayış yerində ziyarətgahların olduğunu göstərir [3, s.40, 53].

Cəlilabad rayonu Əliköməktəpə eneolit dövrü abidəsində isə kiçik ölçülü, dairəvi formalı ibadət evinin qalıqlarına rast gəlinmişdir. Evin orta hissəsində ocaq yerinə rast gəlinmişdir. Ocaqda hisli kiçik daşlara, heyvan fiqurlarına və s. təsadüf olunmuşdur. Tədqiqatçılar abidədə "yağış yağdırmaq" üçün ayinlərin yerinə yetirildiyi qənaətindədirlər. Bu evin sitayiş və magiya məqsədi üçün inşa edildiyi ehtimal olunur [3, s.53; 4, s.57-63; 5, s.164-165].

İlanlıtəpə eneolit dövrü ibadətgahı Qarabağın düzən ərazisində yerləşir. Həmin ibadətgah D.A. Axundov tərəfindən rekonstruksiya edilmişdi [6, s.23]. Ağcabədi rayonunun Qaradolaq kəndi ərazisində yerləşən I Kamiltəpə yaşayış kompleksində isə (eneolit dövrü) dördkünc evlərin əsasını təşkil edən çiy kərpicdən platforma aşkara çıxarılmışdır. Platformanın qalıqlarının aşkar olunması ehtimal ki, abidədə ibadətgahın olmasından xəbər verir. Kamiltəpə Mil düzündə ən qədim əkinçilik məskəni hesab olunur [7, s.335-337; 8, s.35].

Məlum olduğu kimi, artıq Azərbaycan ərazisində ilk tunc dövründən başlayaraq "Günəş-Od" inancı ilə bağlı dini dünyagörüşlərin geniş şəkidə yayılması, dövrün tayfalarının "günəş" və "od"a tapınması ilə nəticələnmişdir. Elə bu səbəbdən də ərazidə ibadət evlərinin və məbədlərin tikintisi genişlənmişdir.

Belə ki, Qobustanın "Dairə" və "Böyükdaş" yaşayış yerlərində ilk tunc dövrünə aid iki cür mo-

bil ocaq qurğusunun olduğu müəyyənləşdirilmişdir. Əldə olunan qırıqlara əsasən, ocaq qurğularının müxtəlif ölçüdə olduğu müəyyən edilmişdir [13, s.22-23]. I Kültəpə abidələrində də anoloji formalı ocaq qurğuları qeydə alınmışdır. Ehtimal ki, bu tip ocaq qurğuları ritual xarakter daşımışdır.

Qərbi Azərbaycanın İrəvan şəhəri yaxınlığında yerləşən ilk tunc dövrü Şenqavit yaşayış yerindən yonulmamış daşlardan dairəvi planda tikilmiş ev üzə çıxarılmışdır. Evin mərkəz hissəsində bişmiş gildən dairəvi şəkildə hazırlanmış ocağın üzərində heroqlifi xatırladan işarələrlə işlənmişdir. Ərazidə tədqiq olunan ikinci analoji evdə də eyni tipli ocağa rast gəlinmişdir. Kult əlamətli əşyalar içərisində daşdan yonulmuş iki heyvan fiquru da əldə olunmuşdur [14, s.255-256].

Belə ki, erkən tunc dövründə Kür-Araz mədəniyyətini səciyyələndirən xüsusiyyətlərdən biri də ərazidən əldə olunmuş ritual ayin xarakteri daşıyan "öküz" və "nal" formsında hazırlanmış ocaq qurğularıdır. Bu tip ocaq qurğularına ərazidəki ibadətgahlarda da rast gəlinmişdi.

Xaçmaz rayonu ərazisində yerləşən Sərkərtəpə yaşayış yerindən də aşkara çıxarılmış çoxsaylı arxeoloji materiallar bölgədə yaşamış qədim tayfaların dini inanclarından xəbər verir. Abidədə ilk tunc dövrünə aid ibadət yerinin aşkar edilməsi daha çox diqqət çəkir. Yaşayış yerinin mərkəz hissədə dairəvi formalı ocaq yeri aşkar olunmuşdu. Şimal divarın yanında isə möhrədən mehrab açılmışdı. Sərkərtəpədən əldə olunan keramika məmulatlarının üzərlərinə dairə, buynuz və aypara şəkilli bəzəklər tətbiq olunmuşdu. Abidədən 40-dan çox özündə "Günəş" obrazını simvollaşdıran təkər formalı əşyalara rast gəlinmişdir [11, s.9-26]. Göründüyü kimi, Sərkərtəpə məbədindən əldə olunmuş maddi mədəniyyət nümunələri abidəni "Günəş", "Ay", "Od" kultu ilə bağlamağa əsas verir.

Qərbi Azərbaycanın Artik ərazisində Qıpçaq kəndində (Ariç) yerləşən e.ə. III minilliyə aid qədim yaşayış yerində düzbucaq planlı iki kiçik ölçülü tikiliyə rast gəlinmişdi. Otaqların içərisində dairəvi formada gil altlıq üzərində hazırlanmış dayaz şəkilli, çox da böyük olmayan dağılmış iki ocağın qalıqları tapılmışdı. Qıpçaq yaşayış yeri materialları arasında ayin təsvirli əşyalar çoxluq təşkil edir. Belə əşyalar içərisində heyvan fiqurları ilə yanaşı, kult xarakterli antropomorf heykəlciklərə də rast gəlinmişdir [12, s.12-13].

Tədqiqatlardan məlum olduğu kimi, ilk tunc dövrünün son mərhələsində ocaq qurğularının üzəri artıq kişi təsvirləri ilə işlənmişdir [9, s.34].

I Maxta yaşayış yeri Şərur rayonu ərazisində yerləşir. Yaşayış yerində olan maraqlı tikililərdən biri ibadətgah olduğu güman edilən dairəvi evin qalığıdır. Tikilinin mərkəzində dairəvi manqal yerləşdirilmişdir. Tikililərin birindən indiyədək analoqu olmayan nalşəkilli ocaq qurğusunun hissəsi aşkar edilmişdir. İnsan ayağına bənzəyən ön çıxıntının üzərində basma və yapma üsulundan istifadə olunmaqla insan təsvirləri verilmişdir. Çıxıntıdan aşağıda isə qurğunun daxili eyni antropomorf başlıqla bəzədilmişdir. Qurğu kəmər şəkilli olub, qırmızı boya ilə rənglənmişdir. Tikintinin daxilindən tapılmış qadın və heyvan fiqurları tikintinin ibadətgah olduğunu bir daha təsdiq edir [10, s.93-94].

İlk tunc dövrü I Maxta yaşayış yerindən əldə olunmuş ocaq qurğularının bir neçəsi qırmızı oxra ilə boyanmışdır. Boyalara yalnız üzərində kişi təsvirləri və kişi əlamətləri olan nalşəkilli ocaq qurğularında rast gəlinmişdi [15, s.82]. Anoloji insan təsvirli ocaq qurğuları A.A. Ələkbərov və O.A.Həbibullayev tərəfindən Naxçıvanın I Kültəpə və Şortəpə yaşayış yerlərindən tapılmışdı [16, s.137].

Nal şəkilli ocaq qurğularına Kür-Araz mədəniyyətinin əksər abidələrində, o cümlədən Naxçıvan ərazisində I və II Kültəpə, II Maxta, Ərəbyengicə, Şortəpə, Aşağı Daşarx abidələrinin ilk tunc dövrü təbəqələrində, Baba-Dərviş, Qaraköpəktəpə, Şenqavit, Qinçi, Şərqi Anadolunun Kars rayonu ərazilərindəki abidələrdə təsadüf olunmuşdu [15, s.82-83; 17, s.20; 18, s.18-19].

Bir çox tədqiqatçılar, o cümlədən O.A.Həbibullayev, R.M.Munçayev də nalşəkilli ocaq qurğularının, əsasən, dini məqsədlər üçün istifadə olunduğunu qeyd etmişlər [16, s.137; 19, s.11-12].

O.A. Həbibullayevin etnoqrafik məlumatlarında qeyd olunur ki, nalşəkilli ocaq qurğularının ən sadə formaları Naxçıvanın dağ kəndlərinin və Azərbaycanın cənub rayonlarının məişətində bu gün də istifadə olunur. Onlar palçıqdan və ya kiçik çay daşlarından qurulur, üzərləri isə saman qarışıqlı gillə suvanır [16 , s.135].

Nalşəkilli ocaq qurğuları tədqiqatçıların qeyd etdiyi kimi, dini-ideoloji dünyagörüşlərində yer almış "od" ayini ilə bağlı olan mərasimlərdə, müqəddəs odun yandırılması üçün istifadə olunmuşdu.

Bizcə, nalşəkilli ocaq qurğularında oda pərəstiş və kişi başlanğıcı inamı özünü göstərir. Ocaq qurğularının qırmızı rəngə boyanması isə, heç şübhəsiz ki, "günəş" inancı ilə birbaşa bağlı olub, qur-

ğunun ritual xarakter daşıdığından xəbər verir.

Belə ki, Soyuqbulaq 3, 14 saylı və s. kurqanlarının üstünün daş düzümündə də nalşəkilli formaya rast gəlinmişdir [20, s.14-15]. Azərbaycanda nalşəkilli ocaq qurğularının tapılması və nalşəkilli kurqan örtüyünün olması, ehtimal ki, ərazidə yaşayan tayfaların "od"a olan inancı və ilə bağlı olmuşdur.

Füzuli rayonunun Qaraköpəktəpə abidəsinin tunc dövrü təbəqəsində olan dairəvi məbədin interyerində qırmızı boya işlədilmişdir. Qaraköpəktəpə abidəsindən öküz başı formalı ocaq qurğusunun nəinki özü, hətta, modeli də tapılmışdı. Məbədin daxilində yerləşən ocağın yanında öküz fiqurlarına rast gəlinmişdir [9, s.34].

Azərbaycan ərazisindəki tunc dövrü ibadətgahlarında daha mürəkkəb konstruksiyalara rast gəlinir. Onlardan biri də Babadərviş yaşayış məskənidir. Abidə Qazax şəhərindən 3-4 km. cənub-qərbdə, Ağstafa çayının sol sahilində eyni adlı ərazidə yerləşir. Təsvir olunan təpəliyin qazılmış hissəsində alt təbəqəsi eneolit dövrünə aid dörd yaşayış evi və iki qəbir aşkara çıxarılmışdı.

Belə ki, Qazax rayonu IV Babadərviş yaşayış yerində təsadüf olunan ilk tunc dövrünə aid birinci yaşayış binası qalığının içərisində gil ocaq qurğusu qeydə alınmışdır. Qurğunun içərisi kül və kömürlə dolu şəkildə aşkar edilmişdi. Ocaq qövsvarı formalı olub, bilavasitə döşəmədə qurulmuşdur. Formaca nalşəkilli olub, qədim mobil ocaqları xatırladır. Yanlardan və arxadan dördkünc möhrə divarla əhatə olunmuşdu. Ocağın möhrə divara tərəf, qurtaracağının hər iki yanı öküz buynuzu ilə bəzədilmişdir. Ondan arxadakı divarda buynuzu aypara şəkilli, simvolik öküz başı formalı çıxıntı yer almışdır. Ocağın hər iki yanında möhrədən dördkünc formalı rəflər və ocağa bitişən alçaq möhrə səkilər tikilmiş, sol səkinin üzərində dairəvi çalalar düzəldilmişdir [21, s.105-107]. D.A.Axundovun rekonstruksiyasına görə, birinci məbəddə hündürlüyü 45 sm. olan nalşəkilli ritual ocaq, onun üzərində iri qoç buynuzları ilə bəzədilmiş meydança vardır. Rekonstruksiya diqqət etdikdə, birinci məbədin ocaq qurğusunun meydançasının qoç yox, öküz buynuzu formalı olduğunu görürük. Məlum olduğu kimi, qədim dövrlərdə öküz özündə "Ay" tanrısını simvolizə etmişdir.

Divar üzərindəki rəsmləri isə meandr və mürəkkəb şəkildə işlənmiş svastika naxışları tamamlayır. Məbədin barının arxa tərəfində hündür olmayan, planda qoç buynuzunu xatırladan divarcıq yerləşmişdir. Mehrabın taxçalarından pintaderlər və ritual qablar tapılmışdır [6, s.173-175].

Qazax rayonu dördüncü Babadərviş yaşayış yerində təsadüf olunan ikinci bina qalığının içərisində də nal şəkilli gil ocaq qurğusu qeydə alınmışdır. Ocaq yarımdairəvi formada olub, iki öküz buynuzu ilə bəzədilmişdir. Onun sağında və solunda dördkünc rəflər yerləşdirilmişdir. Bunlardan arxada hər iki yanda rəflər və ocağa bitişən alçaq möhrə səkilər inşa edilmiş, ocağın arxa hissəsi insan başı formasında düzəldilmiş iri gil fiqurla tamamlanmışdır. Büstün hündürlüyü 40 sm., baş hissəsinin diametri 34 sm.-dir. Büstün baş hissəsi uzunsov olub, burun və qaşları qabarıq xətlərlə, qulaqları dairəvi şəkildə verilmiş, üzərinə "Həyat ağacı"nın simvolu olan qoşa spiral çəkilmişdir [21, s.111-112]. Məbəd D.A.Axundov tərəfindən e.ə.XII-VIII əsrlərə aid edilmişdir [6, s.173-174]. Ehtimal ki, ocağın arxa hissəsində yerləşdirilmiş heykəl "Günəş" tanrısının büstüdür. Onun qarşısındakı yarımdairəvi ocaq isə özündə "Ay" tanrısını simvollaşdırmışdır.

Araşdırmalardan göründüyü kimi, Babadərviş məbədlərində öküzün ilahiləşdirilməsi ilə bağlı təsəvvürlər yer alır. Öküzün ilahiləşdirilməsi sonunda "Ay"a etiqadla bağlı məbədlərin atributlarında özünü göstərir. Babadərviş məbədlərinin ocaq qurğularında artıq üç ilahi kultun – "Günəş", "Ay" və "Od"un birləşməsinin şahidi oluruq.

Cənubi Türkmənistan ərazisində də "Günəş-Ay-Od" inamlı mehrablara rast gəlinmişdir. Göytəpə ərazisində tədqiq olunmuş, e.ə.VI minilliyə aid Pesseciktəpə yaşayış yerində aparılan tədqiqatlar zamanı, təpənin mərkəzində 64 kv. m.-lik ibadət gah açılmışdır. İbadətgah bir divarı polixrom boyalarla işlənmiş müxtəlif tipli ornamentlər və heyvan təsvirləri ilə bəzədilmişdir. Evin divar rəsmləri – freskalar Orta Asiya neolit dövrü divar rəsmlərini xatırladır. Buradakı ibadətgahların birində dərin rəflərin yanında divarlardan qabarıq şəkildə çıxan öküz başları öz əksini tapmışdır. Şərq istiqamətindəki ibadətgahın yuxarı hissəsində, qabarıq konus şəklində olan divarında isə hər iki tərəfdən iki buynuz kimi irəliyə doğru işlənmiş çıxıntılar öküzü xatırladır [22, s.144].

Cənubi Türkmənistan ərazisində tunc dövrünə aid "Günəş-Ay-Od" inamlı ibadətgahı olan digər abidə Altıntəpədir. 50 yaşayış evindən və bir neçə yaşayış kompleksindən ibarət olan abidədə diqqəti

əsas 10 saylı ev cəlb edir. Ev düzbucaqlı şəkildə olub, çiy kərpicdən tikilmiş, divarlar gillə suvanmışdır. Burada inşa olunmuş divardaxili rəf iki hissədən ibarətdir. Şərq tərəfdəki rəf qabarıq şəkildə olub, konusvaridir. Diqqətlə nəzər saldıqda onun daxilində olan dərinliklər buynuzlu heyvanı (öküzü) xatırladır. Qərb tərəfdəki divarda isə qanadlı və qanadsız çərxi-fələk formalı çıxıntıya rast gəlinmişdir. Anoloji təsvirlər ayin icra etmək üçün nəzərdə tutulmuş qabların üzərində də qeydə alınmışdır. Abidədən həmçinin onlarla qadın və öküz fiqurları tapılmişdir. Qadın fiqurlarından bəziləri ocaqda yandırılmışdır. Heyvan fiqurları Qaratəpədən əldə olunmuş öküz fiquru ilə yaxın analogiya təşkil edir [22, s.139-142].

Azərbaycan və Türkmənistan ibadətgahlarının simvolikasında olan oxşarlıq onların eyni mənbədən qaynaqlandıqlarını göstərir. Bunu arxeoloji və antropoloji tədqiqatlar da bir daha sübut edir.

Araşdırmalardan məlum olur ki, Türkmənistan və Azərbaycanın qədim dövr abidələrində tədqiq olunmuş "Günəş-Ay-Od" məbədləri eyni səciyyəvi xüsusiyyətlərə malik olub, özündə "Baş tanrı" obrazlarını simvollaşdırmışdır. Buradan da belə nəticəyə gəlmək olar ki, e.ə. V-II minilliklərdə Türkmənistan və Azərbaycanda eyni soy-kökə və dinə məxsus tayfalar məskunlaşmışlar.

Nəticə. Azərbaycan ərazisində "od" ayini ilə bağlı, "müqəddəs od"u qoruyub saxlamaq üçün ibadət evləri eneolit dövründə tikilsə də, artıq ilk tunc dövründən başlayaraq ərazidə yaşayan tayfaların "Günəş" və "Ay"a tapınmalrının güclənməsi nəticəsində daha mürəkkəb formalı məbədlərin tikintisinə üstünlük verilmişdir. Arxeoloji qazıntılar nəticəsində müxtəlif bölgələrdə fərqli üsluba tikilmiş "Günəş-Ay-Od" inamlı məbədlərə rast gəlinmişdir.

ƏDƏBİYYAT

1. Avesta: (fars dilindən tərcümə) [2 cilddə] / red. M. Əsədova, fars dilindən tərc. ed. və çapa hazır. İ.Şəms. – Bakı: Azərnəşr, – c.1. – 1995. – 103 s.
2. Авшарова, И.Н. «Культ огня» в верованиии азербайджанских племен энеолита и бронзового века // – Киев: Национальный педагогический университет имени М.П. Драгоманова, ВГО Украинская АН, Гилея. Сборник научных статей, – вып. 111. – 2016. №8, – с. 134-137.
3. Baxşəliyev, V.B. Azərbaycan Arxeologiyası [3 cilddə] / V.B. Baxşəliyev. AMEA Naxçıvan bölməsi,– Bakı: Elm, – c. I. – 2006. – 239 s.
4. Mahmudov, F.R. Əlikəməktəpədə arxeoloji qazıntıların İlkin yekunları / – Bakı: Daş dövrü və Azərbaycanda eneolit (Elmi əsərlərin tematik məcmuəsi). Azərbaycan Dövlət Universiteti, – Bakı Universiteti nəşriyyatı, – 1984. – s. 53-74.
5. Аракелян Б.Н. Археологическое изучение Армении за годы Советской власти // Б.Н Аракелян, А.А. Мартиросян. – Москва: СА, – Наука, – 1967. №4. – с. 162-167.
6. Ахундов, Т.И. Некоторые результаты исследования Шемкирских курганов // – Баку: Тезисы докладов «Великий Октябрь и развитие археологической этнографической науки в Азербайджане», –Элм, – 1988. – с. 27.
7. Əliyev, T.R. Azərbaycan-Almaniya Beynəlxalq Çöl Tədqiqatlarının Hesabatı (Ağcabədi rayonu) // T.R. Əliyev, B. Helving, A. Ricci. – Bakı: Azərbaycanda Arxeoloji tədqiqatlar 2012, – Afpoliqraf, – 2013. – s.335-341.
8. Məmmədova, G.H. Qədim və erkən orta əsrlərdə Azərbaycan memarlığı / G.H. Məmmədova, S.X. Hacıyeva. – Bakı: Şərq-Qərb Nəşriyyat Evi, – c. I. – 2013. – 264 s.
9. İsmayılov, Q.S. Quruçay və Köndələnçay vadisində qədim mədəniyyət izləri / Q.S. İsmayılov. – Bakı: Elm, – 1981. – 65 s.
10. Aşurov, S.H. I Maxta qədim yaşayış yerində arxeoloji tədqiqatlar // S.H. Aşurov, V.B. Baxşəliyev, S.A. Hüseynova [və b.] // Azərbaycanda arxeoloji tədqiqatlar 2011, – Bakı: Afpoliqraf, – 2012. – s. 87-96.
11. Мусаев, Д.Л. Серкертепе-поселение эпохи ранней бронзы / Д.Л. Мусаев. – Баку: Nafta-Press, – 2006. – 172 с.
12. Хачатрян, Е.С. Древняя культура Ширака (III-I тыс. до н. э.) / Е.С.Хачатрян. – Ереван: Издательство Ереванского Университета, – 1975. – 277 с.
13. Muradova, F.M. Qobustan / F.M. Muradova – Bakı: Elm, – 1979. – 117 s.

14. Байбуртян, Е.А. Культовый очаг из раскопок Шенгавитского поселения в 1936-1937 гг. // – Москва: Вестник древней истории, – Наука, – 1938. № 4, – с. 255-259.
15. Aşurov, S.H. Naxçıvanın İlk tunc dövrü keramikası. AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu / S.H. Aşurov. – Bakı: Nafta-Press, – 2002. – 157 s.
16. Абибуллаев, О.А. Энеолит и бронза на территории Нахичеванской АССР / О.А. Абибуллаев. – Баку: Элм, – 1982. – 315 с.
17. İsmayılov, Q.S. Çoxsəhifəli tarixi sələnaməmiz // – Bakı: Elm və həyat, – 1979. № 6 – s.18-25.
18. Исмаилов, Г.С. Археологические исследования древнего поселения Баба-Дервиш / Г.С. Исмаилов. – Баку: Элм, – 1977. – 102 с.
19. Мунчаев, Р.М. Древнейшая культура Северо-Восточного Кавказа // – Москва: МИА СССР, – Издательство АН СССР, – 1961. №100, – с. 9-13.
20. Müseyibli, N.Ə. Leylatəpə mədəniyyətinin qəbir abidələri və dəfn adətləri / N.Ə. Müseyibli. – Bakı: Nafta-Press, – 2014. – 140 s.
21. Əliyev, V.H. Babadərvişdə Son Tunc və İlk Dəmir dövrü yaşayış yerləri // V.H. Əliyev. – Bakı: AMM [12 cilddə], – Elm, – c. 8. – 1976. – s.104-130.
22. Масимов, И.С. Раскопки святилища эпохи бронзы на Алтын-депе // Москва: СА, – Наука, – 1973. № 2, – 139-145 с.

ИРАДА АВШАРОВА
Доцент Бакинского Государственного Университета

ПАМЯТНИКИ МАТЕРИАЛЬНОЙ КУЛЬТУРЫ, СВЯЗАННЫЕ С ХРАМАМИ БРОНЗОВОГО ВЕКА И РЕЛИГИОЗНО-СВЕТСКИМ МИРОВОЗЗРЕНИЕМ НА ТЕРРИТОРИИ АЗЕРБАЙДЖАНА

Исследования показывают, что группа памятников, имеющих большое научное значение на территории Азербайджана, образована молитвенными домами и храмами, связанными с духовным миром, религиозно-идеологическим мировоззрением древних людей. Таким образом, вера в «Огонь» в этом районе получила более широкое распространение, начиная с периода энеолита. Проведенные археологические исследования доказывают, что религиозно-идеологическое мировоззрение первых земледельчески-скотоводческих племен того периода связано с верой в «Солнце», «Луну» и «Огонь». На следующем историческом этапе Солнце и Луна входят в образ «бога» в религиозных верованиях племен, проживающих во многих районах Азербайджана. Поклонение «Огню» и «Солнцу» проявляется позднее (в I тысячелетии до нашей эры) под религией «Огнепоклонения».

Ключевые слова: храм, солнце, луна, племя, религия, идеология.

IRADA AVSHAROVA
Associate professor of Baku State University

MATERİAL CULTURAL MONUMENTS RELATED TO BRONZE AGE HOUSES OF WORSHİP AND RELİGİOUS-SECULAR OUTLOOKS İN THE TERRİTORY OF AZERBAİJAN

Studies show that a group of monuments of great scientific importance in the territory of Azerbaijan is made up of houses of worship and temples related to the spiritual world, religious-ideological outlooks of ancient people. Thus, the belief in “Fire" in the area became more widespread starting from the Eneolithic period. The conducted archeological research proves that the religious-ideological outlook of the first farming- cattle-breeding tribes of the period is related to the belief in "Sun", "Moon" and "Fire". At the following historical stage, the Sun and the Moon are reflected in the image of "god" in the religious beliefs of the tribes living in many areas of Azerbaijan. The

worship of "Fire" and "Sun" manifests itself later (in the 1st millennium BC) under the religion of "Fire worship".

Keywords: temple, sun, moon, tribe, religion, ideology.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 26 aprel 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 03 may 2024-cü il.
Rəyçilər: t.ü.f.d. Hicran Mahmudova, t.e.d. İsmayıl Məmmədov.